## 2013-CÜ İLİN ƏSAS QRANT MÜSABİQƏSİ (EİF-2013-9(15)) ÇƏRÇİVƏSİNDƏ YERİNƏ YETİRİLMİŞ LAYİHƏ ÜZRƏ NƏŞRLƏR VƏ ƏSAS ELMİ NƏTİCƏLƏR

Layihədə çərçivəsində nəzərdə tutulan monoqrafiya hazırlanaraq çapa təqdim edilmişdir. Monoqrafiyada Azərbaycanın ən dilbər guşələrindən və tarixi qəsəbələrindən olan Basqalın tarixi, etnoqrafiyası, keçmiş və müasir məişət həyatı tədqiqata cəlb edilmişdir.

Qeyd edək ki, 1989-cu ildə Dövlət Tarix və Mədəniyyət Qoruğu elan edilmiş Basqal özünün plan-məkan quruluşu, memarlıq xüsusiyyətləri, tarixi abidələri, sənətkarlıq ənənələri və s. ilə Orta əsrlər şəhər mədəniyyətinin elementlərini günümüzə qədər çatdıran unikal yaşayış məskənlərimizdən biridir. Lakin əsrlər boyu burada ipək məmulatı istehsalı, xüsusilə də kəlağayıçılıq sənəti ilə daha çox şöhrət tapmışdır. Basqallı ustaların nəfis şəkildə hazırladıqları kəlağayılara hələ uzaq keçmişdə Şərq və Avropa ölkələrində böyük maraq olmuş və bu nadir sənət inciləri Azərbaycanın iqtisadi və ticarət əlaqələrində mühüm rol oynamışdır. Onlar zaman-zaman müxtəlif beynəlxalq sərgilərin mükafatçısı olmuş və bu günə qədər ən dünyanın ən məşhur muzeylərinin dəyərli eksponatları kimi çıxış etməkdədirlər. Təsadüfi deyil ki, Basqal kəlağayısının simasında Azərbaycan kəlağayısı 2014-cü ildə UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmişdir.

Bundan başqa, monoqrafiyada müasir Basqalın turizm və Açıq səma altında muzey statusunu daşıya bilmək imkanları, onun Azərbaycan Respublikasının iqtisadi-mədəni həyatında oynaya biləcəyi mühüm rol və digər məsələlər diqqətə çatdırılmışdır. Monoqrafiya geniş ədəbiyyat, çöl-etnoqrafik və muzey materialları əsasınnda yazılmış, nadir illüstrativ materiallarla zənginləşdirilmişdir.

| № | Nəşr haqqında məlumat (Kitab) | Tam mətn |
|---|---|---|
| 1 | **Məqalənin adı:** Basqal. Tarixi-etnoqrafik tədqiqat<br>**Müəlliflərin S.A.A:** Babayev T., Şahbazov T.<br>**Nəşrin adı:** Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, Bakı: 2017-ci il, 344 s. | PDF Adobe |